RƏSMİ BÜLLETEN

ОФИЦИАЛЬНЫЙ БЮЛЛЕТЕНЬ

**Azərbaycan Respublikası
Əqli Mülkiyyət Agentliyi**

**Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi**

# SƏNAYE MÜLKİYYƏTİ

**İxtiralar**
**Faydalı modellər**
**Sənaye nümunələri**
(aylıq rəsmi bülleten)

# ПРОМЫШЛЕННАЯ СОБСТВЕННОСТЬ

(официальный ежемесячный бюллетень)

**Изобретения**
**Полезные модели**
**Промышленные образцы**

**1996-cı ildən nəşr edilir**

**Издается с 1996 года**

Dərc olunma tarixi: 30.04.2026

Дата публикации: 30.04.2026

Şəhadətnamə № 350

**№ 04**
**Bakı - 2026**

# Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi

## Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi


**Redaksiya heyəti**

**Kamran İmanov**
**Redaksiya heyətinin sədri**,
Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri

**Redaksiya heyətinin üzvləri**

**Xudayət Həsənli**
**Redaksiya heyətinin sədr müavini,**
Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Aparatının rəhbəri

**Gülnarə Rüstəmova**
Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin müşaviri

**Anar Hüseynov**
Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktoru

**Rəcəf Orucov**
Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Əqli mülkiyyətin təhlili və siyasəti şöbəsinin müdiri

# İXTİRALARA, FAYDALI MODELLƏRƏ VƏ SƏNAYE NÜMUNƏLƏRİNƏ AİD BİBLİOQRAFİK MƏLUMATLARIN İDENTİFİKASİYASI ÜÇÜN BEYNƏLXALQ INID (ÜƏMT ST.9 və ST.80 STANDARTLARI) KODLARI

**(11) - patentin nömrəsi / beynəlxalq qeydiyyat nömrəsi**
**(15) - beynəlxalq qeydiyyat tarixi**
**(19) - ÜƏMT ST.3 standartına müvafiq olaraq dərc edən idarə və ya təşkilatın kodu və yaxud digər identifikasiya vasitələri**
**(21) - iddia sənədinin qeydiyyat nömrəsi**
**(22) - iddia sənədinin verilmə tarixi**
**(23) - sərgi ilkinliyi tarixi**
**(28) - iddia sənədinə daxil olan sənaye nümunələrinin nömrələri**
**(31) - ilkin iddia sənədinin nömrəsi**
**(32) - ilkinlik tarixi**
**(33) - ilkinlik ölkəsinin kodu**
**(44) - iddia sənədinin dərc edilmə tarixi**
**(45) - mühafizə sənədinin verilməsi barədə bu, yaxud daha erkən tarixdə qəbul olunmuş qərara uyğun olaraq patent sənədinin mətbəə və ya digər analoji üsullarla dərc edilmə tarixi / beynəlxalq qeydiyyata alınmış sənaye nümunəsinin dərc edilmə tarixi**
**(46) - patent sənədinin düsturunun (düsturun bəndlərinin) ümumi tanışlıq üçün təqdim olunma tarixi / sənaye nümunəsinin mühüm əlamətlərinin siyahısının dərc edilmə tarixi**
**(51) - beynəlxalq patent təsnifatının (BPT) indeksi / sənaye nümunələrinin beynəlxalq təsnifatının (SNBT) indeks(lər)i**
**(54) - ixtiranın / faydalı modelin / sənaye nümunəsinin adı**
**(56) - təsvir mətndən ayrı verildiyi halda, əvvəlki texniki səviyyəli sənədlərin siyahısı**
**(57) - ixtiranın / faydalı modelin referatı və ya düsturu / sənaye nümunəsinin mühüm əlamətlərinin siyahısı**
**(62) - hazırkı sənədin ayrıldığı daha əvvəlki iddia sənədinin nömrəsi və əgər varsa verilmə tarixi**
**(67) - patent verilməsi üçün faydalı modelə dair iddia sənədinin və ya qeydiyyatın əsaslandığı iddia sənədinin nömrəsi və verilmə tarixi və ya faydalı modelə verilmiş patentin nömrəsi**
**(71) - iddiaçı(lar), onun (onların) yaşayış yeri və ya olduğu yer barədə məlumat**
**(72) - müəllif(lər), onun (onların) yaşayış yeri barədə məlumat**
**(73) - patent sahib(lər)i, onun (onların) yaşadığı yer və ya olduğu yer barədə məlumat**
**(74) - iddia sənədində göstərildiyi halda patent müvəkkili və ya nümayəndə, onun yaşadığı yer barədə məlumat**
**(82) - beynəlxalq iddia sənədində qeyd olunan məlumatlar**
**(86) - iddia sənədinin (PCT proseduru üzrə) nömrəsi və verilmə tarixi**
**(87) - iddia sənədinin (PCT proseduru üzrə) nömrəsi və dərc edilmə tarixi**

**МЕЖДУНАРОДНЫЕ КОДЫ INID (СТАНДАРТЫ WIPO СТ.9 и СТ.80) ДЛЯ ИДЕНТИФИКАЦИИ БИБЛИОГРАФИЧЕСКИХ ДАННЫХ, ОТНОСЯЩИХСЯ К ИЗОБРЕТЕНИЯМ, ПОЛЕЗНЫМ МОДЕЛЯМ И ПРОМЫШЛЕННЫМ ОБРАЗЦА**

(11) - номер патента / номер международной регистрации
(15) - дата международной регистрации
(19) - код в соответствии со стандартом ВОИС ST.3 или другие средства идентификации ведомства или организацию, осуществивших публикацию документа
(21) - регистрационный номер заявки
(22) - дата подачи заявки
(23) - дата выставочного приоритета
(28) - номера промышленных образцов, включенных в заявку
(31) - номер приоритетной заявки
(32) - номер приоритета
(33) - код страны приоритета
(44) - дата публикации заявки
(45) - дата публикации типографским или иным аналогичным способом патентного документа, по которому на эту или более раннюю дату было принято решение о выдаче охранного документа / дата публикации получившего международную регистрацию промышленного образца
(46) - дата предоставления для всеобщего ознакомления формулы (пунктов формулы) патентного документа / дата публикации перечня существенных признаков промышленного образца
(51) - индекс Международной патентной классификации (МПК) / индекс(ы) Международной классификации промышленных образцов (МКПО)
(54) - название изобретения / полезной модели / промышленных образца
(56) - список документов предшествующего уровня техники, если он дается отдельно от описательного текста
(57) - реферат или формула изобретения / полезной модели / перечень существенных признаков промышленного образца
(62) - номер, и если это возможно, дата подачи более ранней заявки, из которой, выделен настоящий документ
(67) - номер и дата подачи заявки на патент или номер выданного патента, на которой основаны настоящая заявка на полезную модель или ее регистрация
(71) - сведения о заявителе(ях), его(их) местожительстве или местонахождении
(72) - сведения об изобретателе(ях), его(их) местожительстве
(73) - сведения о патентовладельце(ах), его(их) местожительстве или местонахождении
(74) - сведения о представителе или патентном поверенном, если он указан в заявке, его местожительстве
(82) - заявления, содержащиеся в международной заявке
(86) - номер и дата подачи международной заявки (по процедуре PCT)
(87) - номер и дата публикации международной заявки (по процедуре PCT)

**BÖLMƏ A**

**İNSANIN HƏYATİ TƏLƏBATLARININ TƏMİN EDİLMƏSİ**

**A 61**

**(21)** **a 2025 0199**
**(22)** **04.09.2025**
**(51)** ***A61H 39/00*** (2006.01)
**(71)** **İsgəndərzadə Elçin Barat oğlu (AZ)**
**(72)** **İsgəndərzadə Elçin Barat oğlu (AZ)**
**Aslanov Zabit Yunis oğlu (AZ)**
**Babaxanova Aytən Natiq qızı (AZ)**
**Sultanov Böyükağa Mirzəbala oğlu (AZ)**
**Yunusov Canəli Kamil oğlu (AZ)**
**Əhmədli Şükufə Vaqif qızı (AZ)**
**Nemətzadə Rəşad Qənimət oğlu (AZ)**
**Ağayev Mayil Səlim oğlu (AZ)**
**(54)** **MOBİL FİZİOTERAPEVTİK APARAT**

**(57)** İxtira tibbi müalicə avadanlıqları sahəsinə, xüsusilə mobil fizioterapevtik aparata aiddir.

İxtiranın mahiyyəti ondan ibarətdir ki, mobil fizioterapevtik aparat korpus, korpus daxilində yerləşdirilmiş idarəetmə bloku, qida mənbəyi, tənzimləmə elementləri və pasiyentə qoşulma elementlərini ehtiva edən mobil fizioterapevtik aparat, bu zaman sonuncular kimi fizioterapevtik aparatlara təyin olunmuş hər hansı elektron blok istifadə oluna bilməklə, ixtiraya görə, mikrokontroller, “SMD” tipli kiçik ölçülü radiokomponentlər daxil edir, qida mənbəyi kimi akkumulyator batareyası, displey daxil edir, bu zaman korpusun səthində idarəetmə menyusu, parametrlərin seçimini, dəyərlərin dəyişdirilməsini və, elektrik cərəyanının orqanizmə dozalanmış təsirinin təmin edilməsi ilə, seçilmiş faktorun parametrlərindən asılı olaraq gərginliyin tənzimlənməsini təmin edən elektron düymələr yerləşdirilmişdir.

---

**A 62**

**(21)** **a 2025 0041**
**(22)** **14.03.2025**
**(51)** ***A62D 3/00*** (2006.01)
***A62D 3/172*** (2006.1)
***C07B 35/06*** (2006.01)
**(71)** **Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Radiasiya Problemləri İnstitutu (AZ)**
**(72)** **Qurbanov Müslüm Əhməd oğlu (AZ)**
**İskəndərova Zenfira İskəndər qızı (AZ)**
**Balayev Valeh Saleh oğlu (AZ)**
**(54)** **TRANSFORMATOR YAĞININ XLOR ÜZVİ BİRLƏŞMƏLƏRDƏN TƏMİZLƏNMƏSİ ÜSULU**

**(57)** İxtira energetika və neft kimya sənayesi sahəsinə aiddir və polixlorbifenillərlə çirklənmiş “Sovtol” markalı transformator yağlarının radiasiya texnologiyalarının tətbiqi yolu ilə xlor üzvi birləşmələrindən təmizlənməsi məqsədilə istifadə edilə bilər.

İxtiranın məsələsi polixlobifenillərin parçalanma prosesinin energetik çıxımını artırmaq, xlorsuzlaşdırma prosesinin keyfiyyətini və təmizlənən yağın yekun turşuluğunu dəqiq təyin etmək, aralıq məhsullarla çirklənməni aradan qaldırmaq, prosesi daha aşağı dozalarda aparmaq və təmizlənmiş yağdan təkrar istifadə zamanı kimyəvi korroziyanın baş verməsinin qarşısını almaqdan ibarətdir.

Qarşıya qoyulmuş məsələ onunla həll olunur ki, polixlorbifenillərlə çirklənmiş yağın müxtəlif dozalarda $^{60}$Co izotopunun γ-şüaların təsiri ilə və həlledici kimi spirtdən istifadə etməklə təmizlənməsindən ibarət olan transformator yağlarının xlor üzvi birləşmələrdən təmizlənməsi üsulunda, ixtiraya görə yağın təmizlənməsini udulan dozanın 144 kGy qiymətində $^{60}$Co izotopunun γ-şüalarının təsiri altında, statik şəraitdə otaq temperaturunda, etil spirti əlavə etməklə aparırlar, belə ki şüalanma zamanı transformator yağına KOH qələvisi əlavə edirlər, hansının ki, transformator yağının tərkibində olan polixlorbifenil ilə nisbətini $\alpha = \frac{[\mathrm{KOH}]}{[\mathrm{PXB}]} = 0{,}71$ qəbul edirlər.

---

**BÖLMƏ C**

**KİMYA; METALLURGİYA**

**C 02**

**(21)** **a 2025 0075**
**(22)** **29.04.2025**
**(51)** ***C02F 1/28*** (2006.01)
***C02F 1/62*** (2006.01)
***B01J 20/16*** (2006.01)
***C02F 101/20*** (2006.01)
**(71)** **Azərbaycan Texniki Universiteti (AZ)**
**(72)** **Yusubov Fəxrəddin Vəli oğlu (AZ)**
**İbrahimov Əli Adil oğlu (AZ)**
**Təhməzova Kəmalə Tariyel qızı (AZ)**

**(54) SUYUN AĞIR METAL İONLARINDAN TƏMİZLƏNMƏSİ ZAMANI İSTİFADƏ OLUNMAMIŞ ADSORBENT TUTUMUNUN AZALDILMASI ÜSULU**

**(57)** İxtira sənaye, kənd təsərrüfatı və tibb sahələrinə aiddir, xüsusilə tullantı sularından ağır metalların adsorbsiyası prosesində adsorbentin istifadə olunmamış tutumunun azaldılmasında istifadə edilə bilər.

İxtiranın mahiyyəti ondan ibarətdir ki, emal olunmuş təbii seolitdən istifadə olunaraq adsorbentin sorbsiya qabiliyyətinin artırılmasından ibarət olan suyun ağır metal ionlarından təmizlənməsi zamanı istifadə olunmamış adsorbent tutumunun azaldılması üsulunda, ixtiraya görə təmizlənən suyu 30°C temperaturda klinoptilolit və/və ya $Na_2A_2$ seolitindən ibarət olan tərpənməz adsorbent layından keçirirlər, bu zaman layın giriş və çıxışı arasında 100 kPa təzyiq fərqini saxlayırlar, pH-ı 12 dəyərində sabitləşdirirlər və sabit təzyiq düşməsini qorumaq üçün axının sürətini tənzimləyirlər.

---

**(21) a 2025 0054**
**(22) 06.04.2025**
**(51)** ***C02F 1/28*** (2006.01)
***C02F 1/30*** (2006.01)
**(71) Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Radiasiya Problemləri İnstitutu (AZ)**
**(72) Qurbanov Müslüm Əhməd oğlu (AZ)**
**Quliyeva Ülviyyə Aydın qızı (AZ)**
**Məmmədova Nərmin Tahir qızı (AZ)**
**Abdullayev Elşad Tofiq oğlu (AZ)**
**Kərimov Samir Ələddin oğlu (AZ)**
**(54) NEFT EMALI ZAVODLARININ MAYE TULLANTILARININ TOKSİKİ ÜZVİ KOMPONENTLƏRDƏN TƏMİZLƏNMƏSİ ÜSULU**

**(57)** İxtira neft emalı zavodlarının tullantı sularının toksik üzvi komponentlərdən təmizlənməsi sahəsinə aiddir və neft emalı zavodlarının tullantı sularını toksik üzvi komponentlərdən təmizləmək məqsədilə radiasiya texnologiyalarının tətbiqi vasitəsilə istifadə edilə bilər.

İxtiranın mahiyyəti ondan ibarətdir ki, tullantı sularının $^{60}Co$ izotopunun γ-şüalarının təsiri altında təmizlənməsindən ibarət olan neft emalı zavodlarının maye tullantılarının toksiki üzvi komponentlərdən təmizlənməsi üsulunda, ixtiraya görə şüalanma zamanı tullantı sularına 50 nm ölçülü nano γ-$Al_2O_3$ hissəcikləri əlavə edirlər və tullantı sularının təmizlənməsini udulan dozanın 0,3-55 kGy qiymətlərində, otaq temperaturunda, statik şəraitdə aparırlar.

---

## C 07

**(21) a 2025 0038**
**(22) 13.03.2025**
**(51)** ***C07D 209/00*** (2006.01)
***E21B 43/22*** (2006.01)
**(71) ARETN akad. Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu (AZ)**
**(72) Abbasov Vaqif Məhərrəm oğlu (AZ)**
**Əfəndiyeva Lalə Məhəmməd qızı (AZ)**
**Nəsibova Günay Qəmbər qızı (AZ)**
**Ağamalıyeva Durna Babək qızı (AZ)**
**(54) SİNTETİK NEFT TURŞULARI QARIŞIĞININ POLİETİLENPOLİAMİNLƏ AMİDOAMİNLƏRİ BAKTERİSİD-İNHİBİTOR KİMİ**

**(57)** İxtira neft kimyası sahəsinə, xüsusilə sintetik neft turşularının qarışığının polietilenpoliaminlə amidoaminlərinin alınmasına və onların sulfatreduksiyaedici bakteriyalara qarşı bakterisid-inhibitor kimi istifadəsinə aiddir.

İxtiranın mahiyyəti ondan ibarətdir ki, azərbaycan neftləri qarışığının T-1500 yağ distillatından ayrılmış naften-parafin karbohidrogenlərinin oksidiəşməsi prosesi nəticəsində sintez edilmiş sintetik neft turşuları və polietilenpoliamin əsasında yeni amidoaminlər sulfatreduksiyaedici bakteriyalara qarşı bakterisid-inhibitor kimi sintez edilmişdir. Müəyyən edilmişdir ki, 50 mq/l qatılıqda 100% bakterisid təsir göstərərək sulfatreduksiyaedici bakteriyaların inkişafını tam dayandırır.

---

## C 10

**(21) a 2025 0152**
**(22) 03.07.2025**
**(51)** ***C10L 1/14*** (2006.01)
***C10L 1/18*** (2006.01)
***F17D 1/16*** (2006.01)
**(71) Neftqazelmitədqiqatlayihə İnstitutu (AZ)**
**(72) Mətiyev Kazım İslam oğlu (AZ)**
**Vəliyev Fuad Famil oğlu (AZ)**
**Əlsəfərova Mətanət Eldar qızı (AZ)**
**Əliyeva Şəhla Yunis qızı (AZ)**
**Xəlilov Nurlan Nazim oğlu (AZ)**
**Manafov Manaf Rizvan oğlu (AZ)**
**Şıxıyeva Fatma Rəşid qızı (AZ)**
**(54) YÜKSƏK PARAFİNLİ NEFTLƏRİN DONMA TEMPERATURUNUN AŞAĞI SALIN-**

**MASI VƏ ÖZLÜLÜK XÜSUSİYYƏTLƏRİNİN YAXŞILAŞDIRILMASI ÜÇÜN TƏRKİB**

**(57)** İxtira neft sənayesinə, xüsusən də yüksəkparafinli neftlərin donma temperaturunu və özlülüyünü aşağı salan tərkiblərə aiddir.

İxtiranın məsələsi yüksək parafinli neftlərin donma temperaturunu aşağı salmaq və özlülük xüsusiyyətlərinin yaxşılaşdırılması üçün effektli tərkibin işlənilməsidir.

İxtirada qoyulan məsələ onunla həll olunur ki, yüksək parafinli neftlərin donma temperaturunu aşağı salınması və özlülük xüsusiyyətlərinin yaxşılaşdırılması üçün tərkib qeyri-ionogen səthi-aktiv maddədən - Laprol 4202-2B-30, dispersant və həlledici-katalitik krekinqin yüngül fleqmasından ibarət olub, ixtiraya görə dispersant kimi karbamidi və əlavə olaraq ağır piroliz qətranı və monoetanolamini komponentlərin aşağıdakı nisbətində saxlayır, kütlə %:

| | |
|---|---|
| Laprol 4202-2B-30 | 8-14 |
| Ağır piroliz qətranı | 6-15 |
| Monoetalonamin | 3-6 |
| Karbamid | 0.05-0.1 |
| Katalitik krekinqin yüngül fleqması | qalanı |

---

## BÖLMƏ E

## TİKİNTİ VƏ DAĞ-MƏDƏN İŞLƏRİ

### E 01

**(21) a 2025 0153**
**(22) 03.07.2025**
**(51)** ***E01C 7/36*** (2006.01)
***E02D 3/12*** (2006.01)
**(71) Azərbaycan Memarlıq və İnşaat Universiteti (AZ)**
**(72) Quvalov Abbas Abdurəhman oğlu (AZ)**
**Abdullayev İlqar Hüseyn oğlu (AZ)**
**(54) QRUNTLARIN MÖHKƏMLƏNDİRİLMƏSİ ÜÇÜN TƏRKİB VƏ ONUN YOL TİKİNTİSİNDƏ İSTİFADƏSİ ÜSULU**

**(57)** İxtira yol tikintisi sahəsinə aiddir, xüsusilə avtomobil və dəmir yollarının, həmçinin digər müxtəlif tikinti sahələri üçün və yol örtüyünün salınması işləri zamanı istifadə oluna bilər.

İxtiranın məsələsi qruntların möhkəmləndirilməsi üçün yüksək elastiklik moduluna yük daşıma qabiliyyətinə, suya dayanıqlığa və şaxtaya davamlılığa malik, yol işlərində torpaq yatağının və yol geyiminin tikintisi və həmçinin digər tikinti sahələrində tətbiq olunan tərkibin hazırlanmasındadır.

Qarşıya qoyulmuş məsələ onunla həll olunur ki, sement, gips, mineral əlavə və əhəngdən ibarət olan qruntların möhkəmləndirilməsi üçün tərkib, ixtiraya görə sement klinkeri (39,0%), gips daşı (2,0%), mineral əlavə kimi vulkan külünü (39,0%), sönməmiş əhəngi (20,0%) və əlavə olaraq modifikator kimi kalsium-xloridi (0,1-1,0% tərkibin ümumi kütləsindən) saxlayır.

---

### E 02

**(21) a 2025 0169**
**(22) 17.07.2025**
**(51)** ***E02B 5/08*** (2006.01)
**(71) Həbibov Fəxrəddin Həsən oğlu (AZ)**
**(72) Həbibov Fəxrəddin Həsən oğlu (AZ)**
**Mürsalov Aqil Əli oğlu (AZ)**
**Məmmədov Əhəd Camal (AZ)**
**(54) XƏŞƏLƏ BUZUN SUBURAXICIYA DÜŞMƏSİNDƏN MÜHAFİZƏ ÜÇÜN QURĞU**

**(57)** İxtira yerüstü (səthi) sudan içməli ya da axarıı suyun götürülməsi ya da yığılması üçün qurğulara aiddir, o hidrotexniki tikinti sahəsində istifadə oluna bilər texnoloji (su ötürmək) və texniki (nasoslu və digər avadanlıqda) xəşələ buzun suburaxıcıya düşməsindən mühafizə üçün.

İxtiranın məsələsi xəşələ buzun filtrləyici borulara neqativ təsirindən dayanıqlığı artırılması hesabına qurğunun etibarlığını artırmaqdır.

Xəşələ buzun suburaxıcıya düşməsindən mühafizə üçün qurğu, daxili tərəfində oyuqları ilə metalik düzbucaqlı konturlu çərçivədən olan, suburaxıcının suqəbuledici başlığının batırılan giriş dəliyinin istiqamətləndirici oyuqlu konstruksiyasına yerləşdirilmiş, sukecirən polimer borulardan olan həcmli filtrləyici kaseti öz tərkibində birləşdirir. Hər sukeçirən boru, öz aralarında kontaktlı yan flaneslər üzrə birləşdirilmiş, eyni tipli utilləşdirilmiş metalkordlu minik avtomobillərdən olan təkərlərdən hazırlanıb.

Bununla belə hər utilləşdirilmiş təkərin protektorlarının səthlərinə perforasiya edilir

---

### E 04

**(21) a 2025 0118**
**(22) 04.06.2025**
**(51)** ***E04B 2/40*** (2006.01)
***E04B 2/42*** (2006.01)

**(71) Azərbaycan Memarlıq və İnşaat Universiteti (AZ)**
**(72) Quvalov Abbas Abdurəhman oğlu (AZ)**
**Poluxov Nazim Şamil oğlu (AZ)**
**Hüseynov Əli Firudin oğlu (AZ)**
**Abbasova Səidə İskəndər qızı (AZ)**
**(54) ÇOXQATLI KƏRPİC DİVAR**

**(57)** İxtira tikintiyə, xüsusilə ictimai, sənaye binalarının və qurğularının divarlarının kərpic hörgüsünə aiddir.

İxtiranın məsələsi kərpic hörgüsünün yükgötürmə qabiliyyətinin təmin edilməsi ilə konstruksiyanın möhkəmliyinin artırılması, iki və üçqatlı binaların inşa edilməsi, istilikizolyasiya probleminin həll edilməsi və divarın istismar göstəricilərinin yüksəldilməsindən ibarətdir.

Göstərilən məqsədə onunla nail olunur ki, çoxqatlı divarın xarici və daxili qatları leqo kərpiclə hörülmüş, istilik-izolyasiya qatı kimi polistirolbetondan istifadə edilmiş, hörgünün lazımı möhkəmliyinin yaradılması üçün divarın qatlarının metal elementlərdən ibarət sərt rabitələrlə birləşdirməklə ümumi yükgötürmədə onların birgə işləməsini təmin edərək divarın en kəsiyinin əsas yükdaşıyan qata çevrilməsinə nail olunmuş, istilikizolyasiya qatı kimi B3,5(M50) sinifli polistrolbetonun tətbiqi ilə onun yükgötürən qat kimi istifadəsi təmin edilmişdir.

---

## E 21

**(21) a 2025 0012**
**(22) 24.01.2025**
**(51) *E21B 43/00*** (2006.01)
**(71) "Neftqazelmitədqiqatlayihə" institutu (AZ)**
**(72) Camalbəyov Məhəmməd Asəf oğlu (AZ)**
**(54) NEFT YATAQLARINDA EHTİYATLARIN ERKƏN TƏYİNİ ÜSULU**

**(57)** İxtira neftçıxarma sənayesinə aiddir və neft yataqlarının işlənməsinin layihələndirilməsi və işlənmənin təhlilində istifadə oluna bilər.

İxtiranın məsələsi mədən məlumatlarına əsasən neft yataqlarında ehtiyatların erkən təyini üçün yeni üsulun işlənməsidir.

Qoyulan məsələ onunla həll olunur ki, neft yataqlarında ilkin balans ehtiyatlarının erkən təyini üsulu zamanın iki müxtəlif $t_1$ $t_2$ anına uyğun təzyiqlər üçün laboratoriya eksperimenti yolu ilə neftin həcm əmsalı *a*, neftdə həll olmuş qazın miqdarı *S*, qazın ifrat sıxılma *z* və temperatur korreksiyası β əmsallarının, qaz fazasında buxarlanmış neftin miqdarı *c*-nin təyin edilməsini, neftlə doymuş məsamələr həcminin ilkin qiymətinin $\Omega_0 \approx \frac{\tilde{K} Q_n}{\Delta p}$ kimi müəyyən edilməsini və onun əsasında ilkin balans ehtiyatların $V_{n0} = \frac{1}{a(p_0)} \Omega_0$ $V_{g0} = \frac{S(p_0)}{a(p_0)} \Omega_0$ kimi təyinini nəzərdə tutur, eyni zamanda $\tilde{K} = \frac{\alpha_4(\tilde{p}) + G\alpha_2(\tilde{p})}{[\alpha_6(\tilde{p}) \cdot \alpha_4(\tilde{p}) + \alpha_7(\tilde{p}) \cdot \alpha_2(\tilde{p})]\overline{m}(\tilde{p})}$ əmsalının $t_1$ $t_2$ zaman intervalında orta $\tilde{p} = \frac{p_{t1} + p_{t2}}{2}$ lay təzyiqinə uyğun qiymətindən istifadə edirlər, harada ki, $Q_n, \Delta p$ uyğun olaraq baxılan dövr üçün mədəndə ölçülən toplam neft hasilatı və bu dövr ərzində təzyiq düşgüsü;

$$\alpha_2 = \frac{p\beta c(p)}{z(p) p_{at}} - \frac{1}{a(p)}$$

$$\alpha_4 = \frac{S(p)}{a(p)} - \frac{p\beta}{z(p) p_{at}} [1 - c(p)\gamma(p)] \qquad \alpha_6 = \left[\frac{1}{a(p)}\right]'$$

$$\alpha_7 = \left[\frac{S(p)}{a(p)}\right]' \quad \overline{m} = \frac{m(\tilde{p})}{m(p_0)}$$

məsaməliyin orta $\tilde{p}$ və başlanğıc $p_0$ təzyiqinə uyğun qiymətlərinin nisbəti; $p_{at}$ atmosfer təzyiqidir.

---

**(21) a 2025 0018**
**(22) 07.02.2025**
**(51) *E21B 43/00*** (2006.01)
**(71) "Neftqazelmitədqiqatlayihə" institutu (AZ)**
**(72) Camalbəyov Məhəmməd Asəf oğlu (AZ)**
**(54) NEFT YATAQLARINDA ƏLAQƏLİ SUYUN NƏZƏRƏ ALINMASI İLƏ EHTİYATLARIN ERKƏN TƏYİNİ ÜSULU**

**(57)** İxtira neftçıxarma sənayesinə aiddir və neft yataqlarının işlənməsinin layihələndirilməsi və işlənmənin təhlilində istifadə oluna bilər.

İxtiranın məsələsi mədən məlumatlarına əsasən neft (o cümlədən yüngül neft) yataqlarında əlaqəli suyun nəzərə alınması ilə ehtiyatların erkən təyini üçün yeni üsulun işlənməsidir.

Qoyulan məsələ onunla həll olunur ki, neft yataqlarında ilkin balans ehtiyatlarının erkən təyini

üsulu $t_1, t_2$ zaman intervalında hasil edilmiş $Q_n$ neft miqdarının, layda $\Delta p$ təzyiq düşgüsünün, həmin intervalda $\tilde{p} = \frac{p_{t1}+p_{t2}}{2}$ orta lay təzyiqi və orta *G* qaz faktorunun ölçülməsini və laboratoriya eksperimenti yolu ilə həmin təzyiqlərə uyğun neftin həcm əmsalı *a*, neftdə həll olmuş qazın miqdarı *S* , qazın ifrat sıxılma *z* və temperatur korreksiyası β əmsallarının, qaz fazasında buxarlanmış neftin miqdarı *c*-nin təyin edilməsini, neftlə doymuş məsamələr həcminin ilkin qiymətinin $\Omega_0 \approx \frac{\alpha_4(\tilde{p})+G(\tilde{p})\alpha_2(\tilde{p})}{[\alpha_6(\tilde{p})\cdot\alpha_4(\tilde{p})+\alpha_7(\tilde{p})\cdot\alpha_2(\tilde{p})]\cdot\bar{m}(\tilde{p})}\frac{Q_n}{\Delta p}$ və onun əsasında neft və qazın başlanğıc balans ehtiyatlarının $V_{n0} = \frac{1}{a(p_0)}\Omega_0$ $V_{g0} = \frac{S(p_0)}{a(p_0)}\Omega_0$ düsturu ilə müəyyən edilməsini nəzərdə tutur, onunla fərqlənir ki, əlaqəli su ilə məsamələrin doyma əmsalı $s_w$-ni laydan qaldırılmış kern nümunəsinin laboratoriya şəraitində tədqiqi ilə təyin edirlər, harada ki, $\alpha_6 = (1-s_w)\left[\frac{1}{a(p)}\right]'$ $\alpha_7 = (1-s_w)\left[\frac{S(p)}{a(p)}\right]'$; $\alpha_2 = \frac{\tilde{p}\beta c(\tilde{p})}{z(\tilde{p})p_{at}} - \frac{1}{a(\tilde{p})}$ $\alpha_4 = \frac{S(\tilde{p})}{a(\tilde{p})} - \frac{\tilde{p}\beta}{z(\tilde{p})p_{at}}[1-c(\tilde{p})\bar{\gamma}(\tilde{p})]$ $\bar{m} = \frac{m(\tilde{p})}{m(p_0)}$

məsaməliyin orta $\tilde{p}$ və başlanğıc $p_0$ təzyiqinə uyğun qiymətlərinin nisbəti; $p_{at}$ atmosfer təzyiqidir.

---

(21) **a 2025 0077**
(22) **30.04.2025**
(51) ***E21B 43/267*** (2006.01)
***C09K 8/66*** (2006.01)
***C09K 8/80*** (2006.01)
(31) **63/382,968**
(32) **09.11.2022**
(33) **US**
(86) **PCT/US2023/035050, 12.10.2023**
(87) **WO/2024/102224, 16.05.2024**
(71) **EKSONMOBİL TEKNOLOCİ END İNCİNİRİNQ KOMPANİ (US)**
(72) **QORDON, Piter A.(US)**
**FEN, Lan (US)**
(74) **Yaqubova Tura Adinayevna (AZ)**
(54) **LAYIN HİDROPARÇALANMASI ÜÇÜN MAYE VƏ ONUN İSTİFADƏSİ İLƏ LAYIN EMALI ÜSULU**

**(57)** İxtira, yeraltı layların emalı, xüsusən də yeraltı layların emalında istifadə olunan qatılaşmış mayelərin parçalanması üçün istifadə olunan üsullara və tərkiblərlə aiddir.

İxtiranın məsələsi hidravlik qırılmaya məruz qalan təbəqələrdən yüksək keçiriciliyi təmin etmək və karbohidrogenlərin hasilatının artırmaqdır.

Qoyulmuş məsələ onunla həll olunur ki, hidroparçalanma mayesi daxil edir daşıyıcı maye; və ləng kokslaşmadan əldə edilən koksdan alınmış, əlavə termiki emal olunmuş proppant hissəciklərini, burada ləng kokslaşmadan əldə edilən koksdan alınan, termiki emal olunmuş proppant hissəcikləri, verilmiş müddət ərzində 400°C ilə 1000°C arasında temperaturda termiki emal olunmuş və istənilən ardıcıllıqla verilmiş orta diametr ölçüsünə qədər xırdalanmış ləng kokslaşmadan əldə olunmuş koksdan ibarətdir. Layın emalı üsulunu, daşıyıcı mayedən və ləng kokslaşmadan əldə edilmiş koksdan alınan, əlavə termiki emal olunmuş proppant hissəciklərindən ibarət olan parçalama mayesinin yeraltı formasiyaya daxil edilməsi ilə həyata keçirirlər.

---

## BÖLMƏ F

## MAŞINQAYIRMA, İŞIQLANMA, İSİTMƏ, SİLAH VƏ SURSAT, PARTLATMA İŞLƏRİ

## F 03

(21) **a 2025 0114**
(22) **03.06.2025**
(51) ***F03D 13/12*** (2006.01)
***F03D 13/18*** (2006.01)
(71) **Salamov Oktay Mustafa oğlu (AZ)**
(72) **Salamov Oktay Mustafa oğlu (AZ)**
**Əliyev Fərhad Fəqan oğlu (AZ)**
**Salmanova Firuzə Əziz qızı (AZ)**
**Qasımova Sevda Böyükağa qızı (AZ)**
**Mustafayeva Roza Muxtar qızı (AZ)**
**İskəndərova Zenfira İskəndər qızı (AZ)**
**Mahmudova Təranə Əliməmməd qızı (AZ)**
**Vəlizadə İsmayıl Elşən oğlu (AZ)**
(54) **ÜZGƏCLİ DALĞA ELEKTRİK STANSİYASI**

**(57)** İxtira energetika, xüsusən də hidroenergetika sahəsinə aid olub, dalğa enerjisindən istifadə etməklə neft buruqlarında işləyən işçiləri və sahilyanı qəsəbələri su və elektrik enerjisi ilə təchiz etmək məqsədilə istifadə oluna bilər. İxtiranın məsələsi qurğunun konstruksiyasını təkmilləşdirməklə onun işinin etibarlılığını və səmərəliliyini artırmaq, həmçinin də istehlakçıları eyni zamanda həm elektrik enerjisi, həmçinin də texniki su ilə təmin etməkdən ibarətdir. İxtiranın məsələsi öz həllini onunla tapır ki, üzgəclərin (Ü) sayı 30- 50 ədəd təşkil edir, hansılar ki, dalğaların daxil olduğu istiqamətdən bir-birinin qarşısını kəsməmək şərtilə yan tərəflərindən biri Şimal

qütbünə doğru yönəlmiş kvadratşəkilli həndəsi fiqurun dioqanalı boyunca quraşdırılıb. Silindrik gövdələrin (SG) işçi kamerasının (İK) daxili diametri 20-40 sm təşkil edir və onların hər birinin yuxarısı dəniz səviyyəsindən 1 m, aşağısı isə 6,5 m aşağıda yerləşir. SG-in hər birinin aşağı ucu dənizin dibində quraşdırılmış lövbərə bərkidilib. Sovurucu (SK) və buraxıcı (BK) klapanlardan 5 sm yuxarı hissədən İK-ın hər birinin daxili divarına halqaşəkilli məhdudlaşdırıcı element (HME) bərkidilib. HME-dən 30 sm aşağı hissədən SG-nin daxili divarına bütün əhatəsi üzrə, hermetik şəkildə qalın divarlı metal lövhədən ibarət dib hissə bərkidilib. İşçi kameraların hündürlüyü dalğanın maksimal işçi hündürlüyü nəzərə alınmaqla seçilib. Porşenlərin (P) yuxarıya və aşağıya doğru maksimal gediş məsafəsi 5 m təşkil edir. Bütün Ü-lər xarici tərəfdən, bir-birinə nəzərən 900 bucaq məsafəsində yerləşən, yüngül çəkili bərk polimer-kompozit materialdan hazırlanan dörd dəst diyircək çütlüyü (DC) ilə təchiz olunub. Ü-rin hər biri ayrı-ayrılıqda bir-birinə nəzərən 900 bucaq məsafəsində yerləşən dörd ədəd П-şəkilli şvellerdən (Ş) ibarət məhdudlaşdırıcı çərçivənin (MÇ) içərisində yerləşdirilib. Ü-rin divarlarında olan DC-nin hər biri П-şəkilli Ş-dən biri-nin daxili qanovunda şaquli istiqamətdə yuxarıya və aşağıya doğru asanlıqla hərəkət etmək imkanı ilə kip oturub. Ş-in ən yuxarı ucları dalğasız halda dəniz səviyyəsindən 5 m yuxarıda yerləşir və həmin uclar ortasında Ü-in yuxarıya doğru maksimal hərəkət etmə məsafəsini məhdudlaşdıran və alt tərəfində konik şəkilli girintili hissəsi olan elastomer-kompozit materialdan hazırlanmış məhdudlaşdırıcı elementin (ME) bərkidildiyi, paslanmayan metaldan ibarət qalın divarlı lövhə vasitəsilə sərt şəkildə biri-birinə bərkidilib. Aşağı tərəflərdən isə Ş-in hər biri iki yerdən sərt şəkildə SG-nin xarici divarına bərkidilib. Ü-in isə hər birisi üst tərəfdən elastomer-kompozit materialdan ibarət ME-rin konik şəkilli girintili hissəsi ilə eyni həndəsi ölçülərə malik konik şəkilli çıxıntılı hissə ilə təchiz olunub. SK, İK-nın aşağısını bilavasitə su hövzəsi ilə əlaqələndirən borunun, BK isə onu su üçün akkumulyator çəni (SÜAÇ) ilə əlaqələndirən borunun girişində quraşdırılıb. Metal qol həm Ü, həm də P-lə şarnir mexanizmi vasitəsilə əlaqəlidir. Elektrik gene-ratoru (EG) kimi üçfazalı generatordan istifadə edilir, hansı ki, hidroturbinlə (HT) multiplikator (M) vasitəsilə əlaqəlidir və onların hər üçü aşağı hissəsi dənizin dibinə bərkidilmiş metal dayaq-ların üzərində quraşdırılmış və səviyyəcə SÜAÇ-dən 17-18 m aşağıda yerləşən, qalın divarlı metal bünövrənin üzərində yerləşdirilib. HT açıq hissədə, M və EG isə hermetik bölmənin içəri-sində yerləşdirilib. HB-nin içərisində həm də girişi EG-nun bir fazasına, sabit cərəyanlı çıxışının müsbət qütbü aşağısı sərt şəkildə dənizin dibinə bərkidilmiş və anod rolunu oynayan boruya, mənfi qütbü isə bütün Ü-rin şaquli və üfüqi istiqamətlərdə hərəkətlərini məhdudlaşdıran П-şəkilli Ş-dən ibarət MÇ-rə qoşulmuş avtomatik katod müdafiə qurğusu yerləşdirilib.Ü-lər qalın divarlı metal lövhədən hazırlanmış və içərisi ovuntu şəklinə salınmış, sıxlığı isə dəniz suyunun sıxlığından 15-20% az olan polimer-kompozit materialdan ibarət maddə ilə doldurulub. İK-ı SÜAÇ ilə əlaqələndirən su boruları öz aralarında parallel birləşib. Elektrik kabelləri sudan mühafizə üçün yüksək keyfiyyətli örtüklə örtülüb. Suyu su mənbəyindən SÜAÇ-nə ötürən su borularının hər birinin üzərində adi drenaj ventili (DV), SÜAÇ-dən HT-nə ötürən su borusunun üzərində isə suyun məsrəfini avtomatik şəkildə tənzimləyən idarəolunan ventil (İOV) quraşdırılıb, hansı ki, SÜAÇ-ki suyun səviyyəsinə nəzarət edən səviyyə vericisinin siqnalına əsasən fəaliyyət göstərir. İOV-lə parallel olaraq, HT-nə su ötürən su borusunun üzərində bir ədəd də adi DV quraşdırılıb.

Təklif olunan üzgəcli dalğa elektrik stansiyasında bütün istiqamətli dalğaların maksimal tutulması mümkün olduğundan o yüksək səmərəliliklə və daha böyük f.i.ə. ilə fəaliyyət göstərə bilir. Qurğuda Ü-rin, SG-in və onların işçi kameralarının konstruktiv ölçüləri dəqiq seçildiyindən bu qurğu bütün hündürlüklü dalğa rejimlərində öz işini yüksək səmərəliliklə və etibarlı şəkildə davam elətdirə bilir. SG-in yuxarı hissələri dəniz səviyyəsində, işçi kameralarda SK və BK-rın quraşdırıldığı yerlər isə dəniz səviyyəsindən cəmi 5 m aşağıda olduğundan, suyun SÜAÇ-nə daha asanlıqla ötürülməsi mümkün olur ki, bu da həmin prosesin daha kiçik ölçülü və az çəkili Ü-lər vasitəsilə reallaşdırılmasına imkan verir. Qeyd olunan müsbət cəhətlərinə görə təklif olunan üzgəcli dalqa elektrik stansiyası tələbat gücü 10 MVt-a qədər olan elektrik enerjisi istehlakçıları, o cümlədən də dənizdə yerləşən neft buruqlarını fasiləsiz və dayanıqlı şəkildə həm elektrik enerjisi, həm də texniki su ilə təchiz etmək üçün istifadə oluna bilər

1 a.o.b., 2 a.b.
5 Fiqur

---

**(21)** **a 2025 0208**
**(22)** **18.09.2025**
**(51)** ***F03D 9/02*** (2006.01)
***F24J 2/04*** (2006.01)
***F24J 02/30*** (2006.01)
***F24J 02/42*** (2006.01)
***F24D 3/18*** (2006.01)

***F24D 17/02*** (2006.01)
**(71) Salamov Oktay Mustafa oğlu (AZ)**
**(72) Salamov Oktay Mustafa oğlu (AZ)**
**Əliyev Fərhad Fəqan oğlu (AZ)**
**Salmanova Firuzə Əziz qızı (AZ)**
**Abaszadə Rəşad Qabil oğlu (AZ)**
**Qasımova Sevda Böyükağa qızı (AZ)**
**Mustafayeva Roza Muxtar qızı (AZ)**
**İskəndərova Zenfira İskəndər qızı (AZ)**
**Mahmudova Təranə Əliməmməd qızı (AZ)**
**Poladova Vüsalə Nadir qızı (AZ)**
**Vəlizadə İsmayıl Elşən oğlu (AZ)**
**(54) İSTİ SU VƏ İSTİLİK TƏMİNATI ÜÇÜN HİBRİD GÜNƏŞ-KÜLƏK ENERGETİK QURĞUSU**

**(57)** İxtira alternativ energetika, xüsusən də istilik energetikası sahəsinə aid olub, günəş və külək enerjisindən kombinə olunmuş (hibrid) şəkildə istifadə etməklə, fərdi evləri və bir-sıra obyektləri isti su və istiliklə təmin etmək məqsədilə istifadə oluna bilər. İxtiranın məsələsi istilik tələli yastı günəş kollektoru (İTYGK) ilə istilik nasosunu (İN) hibrid şəkildə istifadə etməklə isti su və istilik təchizatının fasiləsizliyinin və bu proseslərin Wi-Fi sistemi vasitəsilə məsafədən idarə olunmasının təmin edilməsi, İN-nun enerji səmərəliliyinin yüksəldilməsi və qurğunun mərkəzi elektrik enerjisi təchizatı şəbəkəsi (MEETŞ) ilə paralel işinin təmin edilməsindən ibarətdir. İxtiranın məsələsi öz həllini onunla tapır ki, qurğuda yastı günəş kollektoru kimi mini istilik akkumulyasiya kamerasına malik İTYGK-dan istifadə edilir. Qurğu həm də bir ədəd İN-na və hər birində iki ədəd dövran konturunun (DK) olduğu kiçik həcmli əlavə (ƏlİSÇ) və böyük həcmli əsas (ƏsİSÇ) isti su çənlərinə malikdir. Hər iki DK-da istilikdaşıyıcı kimi adi sudan istifadə edilir. ƏlİSÇ-nin birinci DK-nun girişi, bilavasitə İTYGK-nun isti su üçün çıxışı ilə, çıxışı - birinci dövran nasosundan (DN) keçmək-lə onun soyuq su üçün girişi ilə, ikinci DK-nun çıxışı – İN-nun buxarlandırıcısının istilik mübadilə borusunun (İMB) girişi ilə, çirişi - ikinci DN-dan keçməklə həmin İMB-nun çıxışı ilə, İN-nun kondensatorunun İMB-nun çıxışı - ƏsİSÇ-nin birinci DK-nun girişi ilə, girişi - üçüncü DNdan keçməklə həmin DK-nun çıxışı ilə, ƏsİSÇ-nin ikinci DK-nun çıxışı - birinci idarəolunan su ventilindən (İOSV) keçməklə qızdırıcı radiatorların (QR) girişi ilə, girişi isə - dördüncü DN-dan keçməklə həmin QR-rın çıxışı ilə, həmçinin də ikinci İOSV-dən keçməklə isti döşəmənin (İD) İMB-nun girişi ilə əlaqəlidir. İD-nin çıxışı dördüncü DN-dan keçmək-lə ƏsİSÇ-nin ikinci DK-nun girişi ilə əlaqəlidir. Külək elektrik mühərrikinin (KEM) qida dövrəsinə, əlavə olaraq cərəyan mənbələrini avtomatik qoşub-açan blok daxil edilib, hansının ki, giriş dövrəsi invertorun çıxışına, çıxış dövrəsi isə iki istiqamətdə işləyə bilən elektrik sayğacından keçməklə MEETŞ-nə və əl ilə idarə olunan elektrik açarından keçməklə avtomatik idarəetmə blokunun (AİEB) qida gərginliyi üçün girişinə qoşulub. Qurğunun idarəetmə sisteminə əlavə olaraq, pult vasitəsilə yaxın və Wi-Fi sistemi vasitəsilə uzaq məsafələrdən idarə etməyə imkan verən idarəedici bloklar daxil edilib, hansılar ki, müva-fiq olaraq, radiorabitə və peyk rabitəsi vasitəsiilə AİEB-nun idarəedici siqnallar üçün müvafiq girişləri ilə əlaqəlidirlər. Qurğuda AİEB-nun idarəedici siqnallar üçün müvafiq girişləri ilə bilavasitə əlaqəli olan üç ədəd istilik relesindən (İR) istifadə edilir. Birinci İR-nin istiliyəhəssas elementi (İHE) İTYGK-nun çıxış xəttində, ikinci və üçüncü İR-nin İHE-ri isə, uyğun olaraq, ƏlİSÇ və ƏsİSÇ-nin yuxarı hissələrində quraşdırılıb. QR-rın və İD-nin İMB-rı ƏsİSÇ-nin ikinci DK-nun giriş və çıxış xəttlərinə paralel qoşulublar.

Təklif olunan qurğu sxematik quruluşuna görə sadə olmaqla yanaşı, həm də energetik cəhətdən olduqca səmərəlidir. Belə ki, bu qurğuda ilk dəfə olaraq İTYGK-rı ilə İN-nun hibrid şəkildə işləməsinin ən əlverişli üsulu təqdim olunur. ƏlİSÇ-dən istifadə edilməsi qurğuda maye+maye tipli İN-dan istifadəyə imkan verir ki, bu da həmin İN-nun enerji səmərəliliyinin xeyli artmasına səbəb olur və daha kiçik gücə malik KEM-dən istifadə etməyə imkan verir. Təklif olunan qurğunun digər üstünlüyü isə İTYGK-dan istifadə edilməsidir ki, bu növ kollektorlar, günəş radiasiyası xeyli müddət ərzində qurulmuş minimal həddən aşağı düşdükdə və gecə saatlarında da İN-nun buxarlandırıcısı üçün lazım gələn temperatur rejimini saxlamağa imkan verir. Qeyd olunan unikal xüsusiyyətlərinə görə təklif olunan isti su və istilik təminati üçün hibrid günəş-külək energetik qurğusu fərdi evləri və bir-sıra obyektlərin İST və İT məqsədilə geniş şəkildə istifadə oluna bilər.
1 a.o.b., 1 a.b.
1 Fiqur

---

**BÖLMƏ G**

**FİZİKA**

**G 01**

**(21) a 2025 0020**
**(22) 11.02.2025**
**(51)** ***G01V 1/00*** (2006.01)
**(71) "Neftqazelmitədqiqatlayihə" institutu (AZ)**

**(72) Şəkərov Hafiz İsmayıl oğlu (AZ)**
**Ələskərov Elnur Ələskər oğlu (AZ)**
**(54) SEYSMİK KƏŞFİYYATLA NEFT-QAZ YATAQLARININ PROQNOZLAŞDIRILMASI ÜSULU**

**(57)** İxtira seysmik kəşfiyyatla neft-qaz yataqlarının proqnozlaşdırılması üsuluna aiddir, əks olunan və sınan dalğaların parametrlərinin kompleks təhlili əsasında seysmik kəşfiyyatın səmərəliyinin artırılmasına əsaslanmışdır.

Təklif olunan ixtiranın məsələsi neft-qaz yataqlarının proqnozlaşdırılmasının səmərəliyinin artırılmasıdır.

Qarşıya qoyulan məsələ onunla həll olunur ki, seysmik kəşfiyyatla neft-qaz yataqlarının proqnozlaşdırılması üsulu tədqiqat sahəsində profillərin yerləşdirilməsindən, seysmik dalğaların qeyd edilməsindən, dalğa sahəsinin dinamikasının dəyişməsinə görə kəsilişin neftlilik-qazlılığının proqnozlaşdırılmasından ibarət olub, harada ki, eninə profil ondan R məsafəsinde yerləşdirilmiş dalğa mənbələrindən işlənilir, yataqdan keçən sınan dalğalar qeyd edilir, sınan və əks olunan seysmik dalğaların müqayisəli təhlili əsasında, neft-qaz yataqlarının proqnozlaşdırılmasının səmərəliyini artırmaq üçün tədqiqat sahəsində eninə profildən dalğa mənbələri istiqamətində seysmik kənaraçıxma (L) nəzərə alınmaqla, eninə profilə paralel uzununa profil yerləşdirilir və həmin profildə yatağın səthindən əks olunan dalğalar qeyd olunur, burada, seysmik kənaraçıxma aşağıdadakı ifadə ilə təyin edilir:

$$L=Htgi$$

- H - axtarılan yatağın dərinliyi;
- i - böhran bucağıdır və belə təyin olunur:

$$sin\ i=V_{cp}/V_{rp}$$

-$V_{or}$ - seysmik dalğaların yer səthindən sındırıcı sərhədə qədər olan məsafədə yayılma sürəti;
- $V_{sar}$ - seysmik dalğaların sındırıcı sərhəd boyu yayılma sürətidir.

---

**G 02**

**(21) a 2025 0053**
**(22) 04.04.2025**
**(51) *G02B 6/00*** (2006.01)
**(71) Mansurov Tofiq Məhəmməd oğlu (AZ)**
**(72) Mansurov Tofiq Məhəmməd oğlu (AZ)**
**Məmmədov İltimas Əhməd oğlu (AZ)**
**Zeneviç Andrey Oleqoviç (BY)**
**Mansurov Elnur Tofiq oğlu (AZ)**
**Cəfərova Elnarə Mirtağı qızı (AZ)**
**(54) İKİLİ OPTİK-LİFLİ SENSORLAR ƏSASINDA HADİSƏLƏRİN AŞKARLANMASI SİSTEMİ**

**(57)** İxtira lifli optikanın komponentlərinə və xüsusən də informasiya-ölçmə və idarəetmə sistemləri, telekommunikasiya lifi əsasında obyektin vəziyyətinin paylanmış monitorinq sistemi sahələrinə aiddir.

Şüalandırıcıdan, optik lifdən, fotodetektordan, hər biri şəffaf və qeyri-şəffaf seqmentlərə malik ikili optik-lifli sensorlardan, emal blokundan, optik liflərin verici və qəbuledici hissələri arasında, ona möhkəm bərkidilmiş ucluğun təsiri altında optik lifin optik oxuna perpendikulyar şəkildə hərəkət edən rastrdan ibarət olan ikili optik-lifli sensorlar əsasında hadisələrin aşkarlanması sistemi, əlavə olaraq şüalandırıcının çıxışında formalaşdırılmış optik şüanı ikili optik-lifli sensorların sayına bərabər, eyni səviyyəli optik şüalara ayıran optik ayırıcı, optik liflər vasitəsi ilə qoşulmuş ikili optik-lifli sensorlar, ikili optik-lifli sensorların nömrələrinə uyğun kod kombinasiyalarını formalaşdıran kodlayıcı qurğular, rastr və ona möhkəm bərkidilmiş ucluğun hərəkəti zamanı optik liflərin verici və qəbuledici hissələrinin optik oxunun üst-üstə düşmüş vəziyyətini stabil saxlayan bərkidici dayaqlar daxil edilmişdir, bununla bərabər optik ayırıcı və optik liflər vasitəsilə şüalandırıcının çıxışı ikili optik-lifli sensorların girişlərinə qoşulmuşdur, hansıların ki, çıxışları fotodetektorların girişlərinə qoşulmuşdur, hansıların ki, çıxışları kodlayıcı qurğuların girişlərinə qoşulmuşdur, hansıların ki, çıxışları emal blokunun girişlərinə qoşulmuşdur.

---

**BÖLMƏ A**

**İNSANIN HƏYATİ TƏLƏBATLARININ TƏMİN EDİLMƏSİ**

**A 01**

**(11)** **İ 2026 0002**
**(51)** ***A01N 33/04*** (2006.01)
***A01N 55/02*** (2006.01)
***A01N 63/00*** (2006.01)
***A01G 17/02*** (2006.01)
***C07F 15/02*** (2006.01)
**(21)** **a 2024 0020**
**(22)** **09.02.2024**
**(44)** **30.06.2025**
**(71)** **Yolçuyeva Eminə Aqil qızı (AZ)**
**(72)** **Hacıyeva Sevinc Rafiq qızı (AZ)**
**Yolçuyeva Eminə Aqil qızı (AZ)**
**Mövsumov Elman Məhəmməd oğlu (AZ)**
**Gədirova Elmina Müsrət qızı (AZ)**
**Həsənova Ülviyyə Məhəmməd qızı (AZ)**
**Həsənova Səadət Süliddin qızı (AZ)**
**İdrisov Hüseyn Əkbər oğlu (AZ)**
**(54)** **“BİS-(2-NİTROTEREFTALATO)-Dİ-(PİRİDİN)CU(II)MONOHİDRAT ÜZÜM SORTLARINDA MİLDİUM XƏSTƏLİYİNƏ QARŞI PREPARAT KİMİ”**

**(57)** Formulu:



olan bis-(2-nitrotereftalato)-di-(piridin)Cu(II)monohidrat üzüm sortlarında “Mildium” xəstəliyinə qarşı preparat kimi.

---

**(11)** **İ 2026 0003**
**(51)** ***A01N 33/04*** (2006.01)
***A01N 55/02*** (2006.01)
***A01N 63/00*** (2006.01)
***A01G 15/02*** (2006.01)
***C07F 15/02*** (2006.01)
**(21)** **a 2024 0021**
**(22)** **09.02.2024**
**(44)** **30.06.2025**
**(71)** **Yolçuyeva Eminə Aqil qızı (AZ)**
**(72)** **Hacıyeva Sevinc Rafiq qızı (AZ)**
**Yolçuyeva Eminə Aqil qızı (AZ)**
**Həsənova Ülviyyə Məhəmməd qızı (AZ)**
**Mövsumov Elman Məhəmməd oğlu (AZ)**
**Gədirova Elmina Müsrət qızı (AZ)**
**İdrisov Hüseyn Əkbər oğlu (AZ)**
